# Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının səviyyələri

**Rəna Nüsrəddin qızı Cəbrayılova**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** r.jabrailova@rambler.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** idraki maraq, idraki maraqların səviyyələri, motivlər, idraki fəallıq, idraki müstəqillik

**Ключевые слова:** познавательный интерес, уровни познавательных интересов, мотивы, познавательная активность, познавательная незави- симость

**Key words:** cognitive interest, levels of cognitive interests, motives, cognitive activity, cognitive independence

Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının keyfiyyət göstəricilərinə aiddir: idraki fəallıq, idraki müstəqillik və fənlər üzdə öyrənmə aid edilir:

*İdraki fəallıq* - idraki tapşırıqları həll etməyə tələbat və əldə olunmuş biliklərin zəruri olaraq praktikada tətbiqidir. Təlimdə fəallıq şagirdlərə imkan verir ki, sosial təcrübəni tez və uğurlu şəkildə mənimsəsinlər. Habelə fəallıq şagirdlərin kommunikativ qabiliyyətlərini inkişaf etdirir, onların ətrafdakılara münasibətini formalaşdırır. İdraki maraq bir çox tədqiqatçılar tərəfindən xüsusi emosional-müsbət münasibət kimi nəzərdən keçirilir. Belə münasibət idraki fəallığın nəticəsində inkişaf edir.

İdraki fəallıq şagirdlərin intellektual inkişafını təmin edir. Onlar üçün idraki tapşırıqları icra etmək tələbatı xarakterik haldır. Praktikada zəruri biliklər tətbiq edilməlidir. Şəxsiyyətin fəallığı seçici xarakter daşıyır və idraki marağın nəticəsidir. Şəxsiyyət fəal, təşəbbüskar və yaradıcı olduqda onun inkişafı, məqsədə nail olmanı şərtləndirir.

*İdraki müstəqillik* - şəxsiyyətin xassəsi kimi nəzərdən keçirilir. Habelə o kənardakıların köməyi olmadan biliklərə və fəaliyyət üsullarına yiyələnməyə cəhdlə xarakterizə olunur. İdraki müstəqilliyin meyarları və problemin nəzəri təhlili əsasında aşağıdakıları ayırdıq: 1) müstəqil şəkildə fikirləşməyə cəhd göstərmək; 2) yeni situasiyaya bələdləşmək qabiliyyəti, yeni tapşırıqların həlli yollarını tapmaq; 3) xüsusi mühakimələrdə müstəqillik nümayiş etdirmək; 4) kənardakıların köməyi olmadan çətinlikləri sərbəst olaraq aradan qaldırmağa maraq göstərmək.

*Fənlər üzrə öyrənmə* - məqsədin reallaşması səviyyəsinə nail olma kimi nəzərdən keçirilir. Öyrənmə idraki marağın inkişafının göstəricisi və hərəkətverici qüvvəsi kimi müəyyən əsaslara malikdir. Əgər şagirdlər təlim fənləri maraqla yiyələnibsə, o zaman mənimsəmə daha səmərəli olacaqdır. Bunlarla yanaşı hadisələr arasındakı qarşılıqlı əlaqə daha anlaşıqlı olur, müsbət nəticə əldə edilir, habelə motivlərin xarakteri və tələbatlar da dəyişir. Odur ki, uğurlu təlim məsuliyyətlilik hissindən çox asılıdır. İdraki maraqların inkişafında mühüm rol təlimin ibtidai mərhələsinə məxsusdur.

Təlim fəaliyyəti uşaqlarda 6-10 yaş arasında formalaşır. Onun əsasında kiçik yaşlı məktəblilərdə nəzəri dərketmə və təfəkkür, habelə reaksiya inkişaf edir. Bu yaşda şagirdlərdə tə-

lim motivləri də təzahür edir. Kiçik yaşlı məktəblilərdə idraki maraqların inkişafına: 1) sosial əhəmiyyətli fəaliyyət kimi uşağın təlimə müsbət münasibəti; 2) intellektual tapşırıqların həllinə cəhd; 3) uşağın yeni bilik, bacarıq və vərdişlərlə zənginləşdirilməsi aiddir.

Bu yaşda uşaqlar təlim işlərinin bütün növləri ilə maraqlanırlar. Kiçik yaşlı məktəblilərin idraki maraqları onların idraki fəallığının təzahürü ilə sıx bağlıdır. İdraki maraqların göstəriciləri onun inkişafının stimulu kimi təzahür edir. Məktəblilərin istənilən fəaliyyəti idraki maraqların stimulu və mənbəyi ola bilər.

Deməli, kiçik məktəb yaş dövrü şagirdlərin idraki maraqlarının zəif idarə olunması ilə xarakterizə olunur, ona görə ki, onların iradi sferası emosional və intellektual səviyyəyə nisbətən zəif inkişaf edir. Bu mərhələdə iradi proseslər də intensiv inkişafdan geri qalır. Real vəziyyət məktəbliyə hər şeyi öyrənmək həvəsini artırır. Belə ki, intellektual və emosional sfera, o cümlədən iradi sfera arasında ziddiyyətlər intensiv şəkildə mütəmadi olaraq həll edilir.

Nəticələri ümumiləşdirib kiçik məktəb yaş mərhələsində şagirdlərin idraki maraqlarının spesifikliyini aşağıdakı şəkildə fərqləndirə bilərik:

1) Kiçik yaşlı məktəblilər idraki maraq məşğulluqdan deyil, fəaliyyətin sosial əhəmiyyətliliyindən yaranır.

2) Maraq şagirdlərdə intellektual fəallığın təzahürü ilə bağlıdır. O həm də yeniliyə cəhdlə nəzərdən keçirilir.

3) İdraki maraq kiçik məktəb yaşı mərhələsində özünü empirik şəkildə göstərir. Şagirdlərin maraqları ayrı-ayrı konkret fakt və hadisələrə yönəldilir.

4) Fəallığa təhrik müəllimin verdiyi tapşırıqlarda özünü göstərir. İbtidai təlimin sonunda şagirdlərin şəxsi təşəbbüskarlığı biliklərin inkişafında müşahidə edilir.

5) Məktəblilərin idraki maraqların inkişafında həlledici rolu onların intellektual fəallığının təhrikedicisi metodlarına yiyələnmə və sosial motivasiyasının artması oynayır.

Təlim fəaliyyətində biliklərin mənimsənilməsinin səviyyəsi növbəti şəkildə fərqləndirilir:

I səviyyədə - şagirdlərin reproduktiv biliyi şüurlu qavrama kimi özünü göstərir. Bu səviyyədə dərketmənin predmeti haqqında obyektiv informasiyalar qəbul edilir və onlar hafizədə qeydə alınır.

II səviyyədə rekonstruktiv biliklər standart və ya variativ şəraitdə biliklərin tətbiqində təzahür edir. III səviyyədə yaradıcı-səmərəli biliklər səviyyəsində şagirdlər qeyri-tipik, dəyişkən situasiyalarda problemləri müstəqil olaraq həll edir və yaranan çətinlikləri aradan qaldırmağa cəhd göstərirlər.

Kiçik məktəb yaşında müəyyən etdiyimiz psixoloji xüsusiyyətlər əsasında idraki maraqların mahiyyəti açıqlanır. A.Y. Deykina təsdiq edir ki, maraq meyllíliklə eyni anlayışa malikdir. Alimə görə, "maraq müəyyən obyektlərə diqqəti yönəltməyə, onlarla tanış olmağa cəhd göstərmək meylidir" (5).

Təlim prosesində idraki marağın daha effektli inkişaf modelləri tərəfimizdən işlənib hazırlanmışdır. Nəticədə növbəti struktur alınmışdır:

I səviyyədə idraki marağın inkişafı kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində tələbat (hər şeyi bilmək həvəsi) və təəssüratlarla, reproduktivliklə müşayiət olunur.

II səviyyədə əşya və ya hadisələrin fəal axtarışında özünü göstərir. Bu proses rekonstruktiv fəaliyyətlə xarakterizə olunur. III səviyyə isə davamlı idraki marağa cəhddir. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyəti yaradıcı səmərəlilik kimi müəyyən edilir.

İdraki marağın inkişaf modelləri pedaqoji təsirin güclənməsi mərhələsində təlimə şəxsi bələdləşmədə həyata keçirilir. Burada müəllimin pedaqoji ustalığı, onun erudisiyası, avtoriteti mühüm rol oynayır. Müəllim şagirdlərin idraki fəallığının təşkilinə və onun səmərəli şəkildə

həyata keçirilməsinə mütəmadi olaraq kömək edir. İdraki maraqların inkişaf səviyyəsinin hər bir göstəricisini növbəti şəkildə xarakterizə etmək olar:

**I. İdraki fəallığın göstəricilərinə** aiddir:

I səviyyə - idraki marağın reproduktiv-təqlidedici səviyyəsidir. Kiçik yaşlı məktəblilərin təcrübəsi yaşlıların idraki fəaliyyətinin təcrübəsi vasitəsilə toplanır.

II səviyyə - idraki marağın axtarıcı-izahedici səviyyəsidir. Bu səviyyədə müstəqil fəallığın sahəsi genişlənir. Bu zaman idraki fəallıq şagirdlərin qavrayışı əsasında qarşıya qoyulmuş vəzifələr və onların həllinə yönəldilmiş müstəqil axtarış əsasında həyata keçirilir. İdraki fəallıq şagirdlərin aktiv inkişaf zonasında özünü göstərir.

III səviyyə - yaradıcı idraki fəallıqdır və bu səviyyədə qarşıya qoyulmuş vəzifələr şagirdlər tərəfindən müstəqil şəkildə həyata keçirilir. İdraki fəallıq qarşıya qoyulmuş vəzifələrin orijinal yolla həllinə yönəldilmiş axtarıcı istiqamətdir. İdraki fəallıq şagirdlərin yaxın inkişaf zonasında özünü təzahür etdirir. Odur ki, İdraki fəallığın ardıcıl olaraq inkişafın bir səviyyəsindən digərinə keçməsi üçün kiçik yaşlı məktəblilərin idraki marağının səviyyəsi yüksəldilməlidir.

Təlim fəaliyyəti nəzəri və metodiki ədəbiyyatın təhlili gedişində təsdiq edir ki, şagirdlər aşağıdakı imkanlarla təmin edilməlidirlər:

1) Ünsiyyətin dərk edilməsi: şagird məqsəd və vəzifələri, onun vacibliyini, əhəmiyyətliliyini və perspektivliyini başa düşməlidir. 2) Kiçik yaşlı məktəblilərin idraki fəallığının bütün növlərindən istifadə olunmalıdır. 3) Şagirdlərin təcrübəsi və əldə edilmiş biliklər açıqlanmalıdır. 4) İdraki fəallığın məhsuldar metodlarından mütəmadi şəkildə istifadə edilməlidir. 5) şagirdlərin fərdi-psixoloji xüsusiyyət- lərinin inkişafı nəzərə alınmalıdır.

**II. İdraki müstəqilliyin göstəricilərinə** aiddir:

I səviyyə - təqlidçilik əsasında idraki müstəqillikdir. Bu səviyyədə böyüklər tərəfindən təqdim edilmiş informasiyaların qavranılması və yenidən təkrarlanması baş verir. Bilik, bacarıq və vərdişlər hazır formada şagirdlər tərəfindən mənimsənilir.

II səviyyə - hissəvi axtarışı və idraki müstəqillikdir. Bu səviyyədə dəyişkən şəraitdə materialların mənimsənilməsi qabiliyyəti ifadə olunur. Şagirdlərin aldıqları bilik, bacarıq və vərdişlər dərketmənin hərəkətverici qüvvəsi kimi təşəkkül edir.

III səviyyə - yaradıcı-idraki müstəqillik səviyyəsidir. Bu səviyyə idraki vəzifələri formulə etmək bacarığında ifadə olunur. Dərketmə uşağın inkişafının daxili hərəkətverici qüvvələrinin təsiri altında həyata keçirilir.

Kiçik yaşlı məktəblilərin idraki müstəqilliyinin səviyyəsi aşağıdakılarla şərtlənir:

1) Əşyalararası əlaqələrin reallaşması səviyyəsində biliklərin, hərəkətlərin və münasibətlərin formalaşmasının əhatə dairəsi genişlənir.

2) Hazır formada müstəqil olaraq biliklərin mənimsənilməsindən digərinə keçid baş verir.

3) Reproduktiv xarakterli tapşırıqlardan yaradıcılıq tələb edilən bilik və hərəkətlərdən istifadə etmək imkanları genişlənir.

**III. Fənlər üzrə öyrənmənin göstəricilərinə** aiddir:

I səviyyədə öyrənmə kiçik yaşlı məktəblilər üçün konkret bilik, bacarıq və vərdişlərə yiyələnmə kimi nəzərdən keçirilir. Bu səviyyədə müvafiq situasiyalara uyğun alınan biliklərin avtomatik olaraq tətbiqi ifadə olunur.

II səviyyə öyrənmə səviyyəsidir ki, bu zaman dəyişkən şəraitdə alınmış bilik, bacarıq və vərdişlərin tətbiqi həyata keçirilir.

III səviyyə isə bilik, bacarıq və vərdişlərin yaradıcı tətbiqi əsasında öyrənmədir. Fəaliyyətin yeni məhsullarının alınması nəticə kimi özünü göstərir.

Əşyalar üzrə öyrənmənin I səviyyəsi idraki maraqların inkişafı prosesində əsas və müəyyənedici öyrənmədir. Öyrənmənin bu səviyyəsi kiçik yaşlı məktəblilərin təlim fəaliyyətində yaradıcı və qeyri-standart tapşırıqlardan istifadə ilə müəyyən edilir.

Beləliklə, idraki maraq probleminin nəzəri təhlili bizə növbəti nəticələrə gəlməyə imkan verir: 1) Təlim fəaliyyətində idraki maraq çoxplanlı sahə olub bir vasitə kimi şagirdlərin ayrı-ayrı təlim hərəkətlərinin güclü motivi, o cümlədən təlimin nəticəsi və şəxsiyyətinin xassəsi kimi özünü göstərir. 2) idraki maraq şəxsiyyətin bu və ya digər xassəsi kimi fəaliyyətdə, o cümlədən tələbat və motivlərlə qarşılıqlı əlaqədə inkişaf edir. 3) İdraki maraq - uşaq davranışının təbii hərəkətvericisi olub instinktiv cəhdlərdə ifadə olunur. 4) Təlim fəaliyyətində idraki maraqların inkişafının keyfiyyət göstəriciləri kimi idraki müstəqillik, idraki fəallıq və fənn üzrə öyrənmə müəyyən edilir. 5) içik yaşlı məktəblilərin idraki maraqlarının inkişaf prosesinin intensivləşdirilməsi üçün zəruri olaraq təlim prosesində müvafiq pedaqoji modellərdən istifadə edilir ki, o növbəti xüsusiyyətlərə: çoxsəviyyəli məzmuna və idraki maraqların çoxölçülü göstəricilərinə malikdir.

**Məqalənin aktuallığı.** Məqalə təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişaf dinamikasının tədqiqi baxımından aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişaf səviyyələri və inkişaf dinamikası ardıcıllıqla araşdırılmışdır ki, bu da məqalənin elmi yeniliyini göstərir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
4. Баранова Э.А. Диагностика познавательного интереса у младших школьников и дошкольников. М.: Речь, 2004.
5. Дейкина А.Ю. Познавательный интерес: сущность и проблемы изучения. М.: Просвещение, 2012.

**Р.Н. Джабраилова**

## Уровни познавательных интересов младших школьников в учебной деятельности

## Резюме

В научной статье последовательно комментируются уровни познавательных интересов младших школьников в учебной деятельности. В статье также объясняются специфические особенности интереса в раннем школьном возрасте. В научной статье автор выделил уровень освоения знаний в учебной деятельности. Индикаторы этих уровней также были описаны последовательно.

**R.N. Jabrayilova**

## Levels of cognitive interests of younger students in educational activities


## Summary

The scientific article consistently comments on the levels of cognitive interests of junior schoolchildren in educational activities. The article also explains the specific specifics of interest in the early school age. In the scientific article the author has distinguished the level of assimilation of knowledge in educational activity. Indicators of those levels were also described in a sequential manner.


**Redaksiyaya daxil olub:** 06.01.2021